# Çuxur Qəbələdə "yaşıl turizm"in yüksəlişi

## Lavanda plantasiyalarının xoş ətri təkcə özümüzü deyil, xarici qonaqları da cazibəsində saxlayır

**"Azərbaycanda, xüsusən də Qəbələdə bir neçə dəfə olmuşam. Məni bu bölgəyə çəkən ölkənizin təbii gözəllikləri, xüsusən də füsunkar və faydalı lavanda tarlalarıdır. Modellik fəaliyyəti ilə məşğulluğuma, dəb nümayiş etdirdiyimə görə həm fotosessiyam üçün münasib məkan axtarışındayam, həm də lavandadan hazırlanan müxtəlif kosmetik vasitələrdən, dəri üçün yağlardan alıb aparıram".**



Qəbələ rayonunun Çuxur Qəbələ kəndi ərazisində yerləşən lavanda sahəsində rastlaşdığımız 19 yaşlı rusiyalı xanım Angelina Romanova belə deyir. Digər həmsöhbətimiz, ixiyar yaşlı pakistanlı Əhməd Şərafəddin də həmin möcüzəvi bitki tərkibli dərmanları fiziki və zehni yorğunluğu aradan qaldırmaq, stresdən uzaqlaşmaq üçün əla vasitə sayır. Səudiyyə Ərəbistanından gəlmiş turist Mohammed Tahanı isə sadəcə səs-küydən uzaq məkanda, yaşıllıqlar qoynunda istirahət və ov maraqlandırır.

Ölkəmizdə inkişaf etdirilən turizmin bir təmayülü də kənd turizmidir. İndi bu sahəyə diqqət artıb. "Yaşıl turizm"lə yanaşı, orta və kiçik sahibkarlıq da tərəqqidədir, bölgə əhalisi iş yerləri tapır, kənd təsərrüfatından, tarlalardakı fəaliyyətdən tutmuş evlərin kirayəsinə, bələdçiliyə, xırda ticarətə qədər pul qazanırlar. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub, azadlığa qovuşmuş Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Noyabrda Bakıda keçiriləcək COP29 beynəlxalq konfransına ciddi hazırlıq görülür. Məmləkətimizə 80 mindən artıq əcnəbinin, özü də ekologiya üzrə mütəxəssislərin üz tutacağını nəzərə alsaq, turizmin inkişafı prioritet kimi nəzərdə tutulur.

Lavanda çox qədim, ətirli, insan orqanizminə xeyirli çoxillik ədviyyat bitkisidir, vətəni Aralıq dənizi sahilləri hesab olunur. Araşdırmalar təsdiqləyir ki, hələ qədim Misirdə mumiyalanma zamanı istifadə olunub, 1922-ci il tədqiqatları zamanı izlərinə firon Tutanxamonun sarkofaqında rast gəlinib. Dünyanın bir çox yerində müxtəlif məqsədlərlə yetişdirilir: dekorativ bitki və ya mətbəx ədviyyatı kimi, narahatlığı aradan qaldıran, infeksiyalar, yanıqlar, yaralar, ağrılar, saç tökülməsi problemlərinə qarşı müalicəvi vasitələrin hazırlanmasında istifadə olunan efir yağlarını əldə etmək üçün və sair. Bundan başqa, lavanda yalnız faydalı tibbi-kosmetik xüsusiyyətlərinə deyil, həm də çiçəklərinin gözəlliyinə və incə ətrinə görə də yüksək dəyərləndirilir. Onun nektarından alınan bal çox vtaminli və qiymətlidir. Azərbaycanın Çuxur Qəbələsinə isə lavanda 2019-cu ildə gətirilib, 30 hektarlıq sahədə salınıb, beş ildir aqrotexniki üsullarla becərilir.

Bəli, ölkəmizin qonaqları Qəbələnin şimal-şərqində, Qafqaz dağlarının ətəyində yerləşən "Essenso" plantasiyalarının heyranıdır. Lavanda bitkisi çoxsaylı tarixi abidələrin məkanı qədim Çuxur Qəbələnin mənzərəsinə və havasına bir başqa görüntü və qoxu qatır. Bənövşəyi tarlalara heyran qalmaq, havadakı ecazkar ətri hiss etmək, yetişdirilməsi haqqında maraqlı məlumat almaq və aromatik yağlardan tutmuş lavanda balına qədər bir sıra dərman məhsullarını sınamaq üçün "Essenso" plantasiyasına baş çəkmək olar. Səfər, ekskursiya üçün ən yaxşı vaxt isə indi tarlaların tam çiçəklənmə dövrü - mayın sonundan iyunun axırına qədər olan müddətdir.

Hər il həmin aylarda burada ABŞ, Türkiyə, Fransa, İtaliya və Bolqarıstandakı tədbirlərə bənzər Lavanda Festivalı keçirilir. Festivalın qonaqları lavandanın müxtəlif sortlarının yetişdirilməsi və istifadəsinin sirlərini öyrənmək, gül ləçəklərindən ətirli, dadlı və sağlam qidaları dadmaq, məhsulları sınamaq, konsertlər, moda nümayişləri və digər maraqlı tədbirlərə qatılmaq şansı qazanırlar.

***Qurban MƏMMƏDOV***

Azərbaycan. - 2024.- 9 iyun, № 121.- S.11.